*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2026-cı il 13 iyul tarixli 25 nömrəli Əmri ilə təsdiq edilmişdir*

**Patent müvəkkili statusu almaq istəyən şəxslərin (patent müvəkkilliyinə namizədlərin) attestasiyasının müsahibə mərhələsində biliklərinin qiymətləndirilməsi**

**M E Y A R L A R I**

## 1. Ümumi müddəalar

1.1. Bu Meyarlar patent müvəkkili statusu almaq istəyən şəxslərin (namizədlərin) attestasiyasının müsahibə mərhələsində biliklərinin qiymətləndirilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Attestasiyanın müsahibə mərhələsində yalnız Dövlət İmtahan Mərkəzi tərəfindən 2026-cı il 12 aprel tarixində keçirilmiş patent müvəkkili statusu almaq istəyən şəxslərin (namizədlərin) attestasiyasının test imtahanı mərhələsində ən azı 50 bal toplamış namizədlər iştirak etmək hüququna malikdirlər.

1.3. Müsahibə mərhələsində namizədlərin bilikləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Patent müvəkkilləri haqqında Əsasnamə"nin (bundan sonra - **Əsasnamə**) 6.2-ci bəndinə uyğun olaraq sənaye mülkiyyəti obyektləri (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstərici), habelə müəlliflik hüququ (kəsişmə hallarında) sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, eləcə də həmin obyektlərə dair hüquqların mühafizəsinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Mülki Məcəlləsi və Cinayət Məcəlləsi ilə tənzimlənməsinə dair sualların cavablandırılması əsasında qiymətləndirilir.

## 2. Müsahibənin keçirilməsi, namizədlərin biliklərinin qiymətləndirilməsi və attestasiyanın nəticələri

2.1. Attestasiyanın müsahibə mərhələsində iştirak etmək hüququ qazanmış namizədlərə müsahibənin keçiriləcəyi yer, tarix və vaxt barədə ən azı 10 (on) gün əvvəl onların elektron poçt ünvanlarına yazılı bildiriş göndərilir.

2.2. Müsahibə komissiyasının hər hansı üzvü namizədlərdən biri ilə yaxın qohumluq, şəxsi dostluq və ya onun qərəzsizliyinə şübhə yarada biləcək digər münasibətlərdə olduqda, həmin namizədlə keçirilən müsahibədə iştirak etmir və bu barədə müsahibə başlanmamışdan əvvəl komissiyaya yazılı məlumat verir.

2.3. Namizədlərlə müsahibə fərdi qaydada aparılır. Müsahibənin müddəti 20 (iyirmi) dəqiqədən az və 30 dəqiqədən çox olmamalıdır.

2.4. Şəffaflığının və obyektivliyinin təmin edilməsi məqsədilə müsahibənin videoçəkilişi aparılır.

2.5. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş test imtahanı mərhələsində əldə olunmuş nəticələrlə müsahibə mərhələsində namizədin topladığı balların müqaisə edilə bilən qaydada qiymətləndirilməsinin (uyğunlaşdırılmasının) təmin edilməsi məqsədilə:

2.5.1. Müsahibə zamanı hər bir namizədə komissiya üzvləri tərəfindən ümumilikdə 5 (beş) sual verilir;

2.5.2. Suallar üzrə qiymətləndirmə müsahibədə iştirak edən komissiya üzvlərinin hər biri tərəfindən ayrıca aparılır. Verilən ballar əsasında orta bal hesablanır və qimətləndirmə vərəqində qeyd olunur.

2.5.3. Hər bir suala verilən cavabın qiymətləndirilməsi aşağıdakı meyarlar əsasında aparılır və müvafiq bal göstəriciləri ilə müəyyən edilir:

- Sualda qoyulan məsələnin düzgün başa düşülməsi və tam cavablandırılması - **8 bal**
- Müvafiq normativ hüquqi aktların və beynəlxalq müqavilələrin düzgün seçilməsi və tətbiqi - **6 bal**
- Verilən cavabların məntiqiliyi və ardıcıllığı - **4 bal**
- cavablarda hüquqi terminalogiyadan düzgün istifadə edilməsi - **2 bal**

Cəmi: - **20 bal**

2.5.4. Namizəd verilən 5 (beş) sual üzrə topladığı balların cəminə əsasən 0-dan 100-ə qədər bal toplaya bilər.

2.5.5. Namizədlərin müsahibə mərhələsində topladıqları ballar aşağıdakı kimi qiymətləndirilir:

- 71 - 100 bal - **"əla"**
- 61 - 70 bal - **"yaxşı"**
- 50 - 60 bal - **"kafi".**

2.6. Test imtahanı mərhələsində toplanmış ballar aşağıdakı qiymətləndirmə şkalasına uyğun qəbul edilir:

- 71 - 80 bal - **"əla"**
- 61 - 70 bal - **"yaxşı"**
- 50 - 60 bal - **"kafi".**

2.7. Müsahibənin nəticələri namizədin iştirakı olmadan komissiya üzvləri tərəfindən qiymətləndirilir.

2.8. Attestasiyanın test və müsahibə mərhələlərində namizədin topladığı balların cəminin ikiyə bölünməsi yolu ilə orta bal müəyyən edilir. Orta bal 50 (əlli) və ya daha yüksək olduqda komissiya tərəfindən namizədin attestasiyadan keçmiş hesab edilməsi barədə qərar qəbul olunur.

2.9. Namizədin bilik səviyyəsinin daha dolğun və obyektiv qimətləndirilməsi məqsədilə komissiya üzvləri əsas suallara əlavə olaraq dəqiqləşdirici suallar verə bilərlər. Dəqiqləşdirici suallar əsas suallara verilmiş cavabların qimətləndirilməsinə xidmət edir.

2.10. Namizədin attestasiyadan keçib-keçməməsi barədə qərar bu Meyarların 2.8-ci bəndində nəzərdə tutulmuş qiymətləndirmənin nəticələrinə əsasən komissiya tərəfindən açıq səsvermə yolu ilə qəbul edilir və protokolla rəsmiləşdirilir.

2.11. Müsahibədə iştirak etmiş komissiya üzvü namizədin attestasiyadan keçib- keçməməsi barədə qərarın qəbul edilməsinə dair səsvermədə iştirak etməyə borcludur. Komissiya üzvü qəbul edilmiş qərarla razı olmadıqda rəyini yazılı formada təqdim edə bilər və bu rəy protokola əlavə edilir.

2.12. Namizədin attestasiyadan keçib - keçməməsi barədə komissiyanın yekun qərarı qrafik üzrə nəzərdə tutulmuş bütün müsahibələr başa çatdıqdan sonra elan edilir və bu barədə məlumatlar Əqli Mülkiyyət Agentliyinin rəsmi internet saytında (www.copat.gov.az) yerləşdirilir.

### 3. Yekun müddəalar

3.1. Attestasiyanın nəticələri ilə razı olmayan şəxs Attestasiya komissiyasının yekun qərarı barədə bildirişi aldığı tarixdən etibarən 30 (otuz) gün müddətində Əsasnamənin 6.2-ci bəndinin onuncu abzasına uyğun olaraq Əqli Mülkiyyət Agentliyinin Əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasına yazılı etiraz verə bilər.

3.2. Etiraz vermiş şəxs Apellyasiya şurasının qərarı ilə razı olmadıqda, qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə aidiyyəti məhkəməyə müraciət etmək hüququna malikdir.

3.3. Attestasiyanın keçirilməsi ilə bağlı bu Meyarlarda nəzərdə tutulmayan digər məsələlər Əsasnaməyə uyğun olaraq tənzimlənir.